6 avqust 2015-cü il tarixində Yaponiyanın Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfiri cənab Tsuquo Takahişinin və Azərbaycan Respublikası Kənd Təsərrüfat Naziri Zati-aliləri cənab Heydər Əsədovun iştirakı ilə səfirin Bakıdakı iqamətgahında Yaponiya Hökumətinin İnkişafa Rəsmi Yardım (ODA) proqramı çərçivəsində “Yaponiyanın Kiçik və Orta həcmli şirkətlərinin məhsullarının təminatı” üçün Qeyri-Layihə Qrant Yardımı xətti üzrə İmzalanma Mərasimi keçirilmişdir.

## “Yaponiyanın Kiçik və Orta həcmli müəssisələrinin məhsullarının təminatı” üçün Qeyri-Layihə Qrant Yardımı

Layihənin əsas  məqsədi Yaponiyanın kiçik və orta həcmli müəssisələrin unikal səmərəli və istifadəsi rahat olan texnologiyalarından istifadə edərək, Azərbaycanın kənd təsərrüfatı inkişafının təşfiqini dəstəkləməkdir. Layihə çərçivəsində Yaponiyanın kiçik və orta həcmli müəssisələrin istehsal etdiyi kənd təsərrüfatı avadanlıqları Azərbaycana göndəriləcəkdir. Hazırkı layihə üçün Yaponiya Hökumətinin ayırdığı qrantın məbləği 100,000,000 yapon yeni (təxminən 909,090 ABŞ dolları) təşkil edir.

**İmzalanma mərasimi**



**Səfirin nitqi**



**Notaların mübadiləsi**



**Musahibə**

